2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2015-ci il tarixli 158 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri                                        10 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 92 saylı Zərdab-Ucar seçki dairəsindən Məlikumudlu bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əhmədov Ataş Davud oğlunun 2015-ci il yanvarın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq tərtib edildiyindən və müəyyən edilmiş şikayətvermə müddətində verildiyindən ekspert qrupunun üzvü tərəfindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 92 saylı Zərdab-Ucar seçki dairəsindən Məlikumudlu bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əhmədov Ataş Davud oğlu 2015-ci il yanvarın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsi üzrə 31 saylı seçki məntəqəsində iddia edilən qanun pozuntuları ilə bağlı müraciətinin araşdırılmasında onun iştirakının dairə seçki komissiyası tərəfindən təmin edilməməsini mübahisələndirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Araşdırma prosesində müəyyən edilmişdir ki, A.D.Əhmədov və onun tərəfindən təyin edilmiş müşahidəçi E.S.Quliyev 92 saylı Zərdab-Ucar seçki dairəsinin 31 saylı seçki məntəqəsində səsvermə günü qanun pozuntularının olması ilə bağlı 2014-cü il dekabrın 27-də həmin dairə seçki komissiyasına müraciət etmiş, müraciətə 2014-cü il dekabrın 28-də mahiyyəti üzrə baxılmış və onun təmin edilməməsi barədə 17/42 saylı qərar qəbul edilmişdir.

92 saylı Zərdab-Ucar seçki dairəsinin dairə seçki komissiyası tərəfindən təqdim edilmiş arayış və müşahidəçi E.S.Quliyevin izahatından müəyyən edilir ki, qeydə alınmış namizəd A.D.Əhmədov və onun təyin etdiyi müşahidəçi araşdırmaya dəvət olunsalar da, ərizəçilərdən yalnız E.S.Quliyev komissiyanın iclasında iştirak etmişdir.

Bundan başqa, müxtəlif siyasi partiyaları təmsil edən komissiya üzvlərindən və müraciətdə mübahisələndirilən seçki məntəqəsində seçkilər günü müşahidə aparmış müşahidəçilərdən, həmçinin səsvermənin nəticələrinə görə kifayət qədər səs toplamamış qeydə alınmış namizədlərdən daxil olmuş izahatlardan müəyyən edilir ki, səsvermə günü və səslərin hesablanması prosesində həmin məntəqə üzrə seçkilərin nəticələrinə təsir edə biləcək pozuntular baş verməmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 92 saylı Zərdab-Ucar seçki dairəsindən Məlikumudlu bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əhmədov Ataş Davud oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş olmuş 10 yanvar 2015-ci il tarixli 158 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli, 17/42 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İradə Hacıyeva